


Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 131 (21.283)

7 iyul 2015-ci il, çərşənbə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Naxçıvanda Azərbaycan Milli Elmlər Akademiyası Rəyasət Heyətinin iclası keçirilmişdir









İyulun 6-da Naxçıvanda Azərbaycan Milli Elmlər Akademiyası Rəyasət Heyətinin iclası keçirilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov, Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti, akademik Akif Əlizadə və iclas iştirakçıları əvvəlcə Naxçıvan Şəhər İcra Hakimiyyətinin foyesində Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Bilik Fondunun təşkil etdiyi “Elmdən təcrübəyə” sərgisinə baxmışlar.

Sərgidə nümayiş olunan Naxçıvan duzu, muxtar respublikada istehsal olunan tikinti materialları nümunələri, “Farma Şah” Məhdud Məsuliyyətli Cəmiyyətində hazırlanan paketlənmiş dərman bitkiləri və kapsullar Naxçıvanın zəngin təbii sərvətlərindən, şəfalı florasından və onların hərtərəfli tədqiqindən xəbər verirdi. Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Geoloji Axtarış və Kəşfiyyat İdarəsinin nümayiş etdirdiyi filiz və qeyri-filiz yataqlarını xarakterizə edən materiallar, Naxçıvan Muxtar Respublikasının faydalı qazıntılarına həsr edilmiş elmi-praktik əsər və monoqrafiyalar da sərgi iştirakçılarının böyük marağına səbəb olmuşdur.

Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsi, Naxçıvan Dövlət Universiteti, Naxçıvan Müəllimlər İnstitutu və “Naxçıvan” Universiteti əməkdaşlarının kitab və monoqrafiyaları, muxtar respublikada keçirilən beynəlxalq konfrans və simpoziumların materialları da sərgidə nümayiş etdirildi. “Qayıdış”, “Naxçıvan Muxtar Respublikasının yubileyləri”, “Naxçıvan ensiklopediyası”, “Naxçıvan məktəbi”, “Naxçıvan folkloru antologiyası”, “Naxçıvan abidələri ensiklopediyası”, “Naxçıvan tarixi” çoxcildliyinin birinci və ikinci cildləri, digər kitablar, naxçıvanlı alimlərin müəllifi olduğu sort və patentlər, muxtar respublikanın bitki örtüyü, heyvanlar aləmi və torpaq xüsusiyyətlərini əks etdirən xəritələr, Bioresurslar İnstitutu əməkdaşlarının hazırladığı dərman bitkiləri, yağ və ekstraktlar, Naxçıvan Dövlət Universiteti tələbələrinin hazırladıqları “Külək generatoru”, “Elektron işıqfor qurğusu”, “Səs generator aparatı”, “Elektron suvarma sistemi” və digər qurğu və avadanlıqlar tədbir iştirakçıları tərəfindən maraqla qarşılanmışdır. “Araz” Elm İstehsalat Birliyi Azərbaycan elminə və kənd təsərrüfatının inkişafına mühüm töhfələr verir. Birlikdə tədqiq olunan və sərgidə nümayiş etdirilən buğda, arpa, qarğıdalı, tez yetişən kartof və müxtəlif meyvə sortları muxtar respublika iqliminə uyğunluğu və yüksək məhsuldarlığı ilə seçilir.

Sərgi ilə tanışlıqdan sonra Azərbaycan Milli Elmlər Akademiyası Rəyasət Heyətinin iclası öz işinə başlamışdır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Naxçıvan şəhərində Azərbaycan Milli Elmlər Akademiyası Rəyasət Heyətinin iclasının keçirilməsinin Azərbaycanda, o cümlədən Naxçıvan Muxtar Respublikasında elmin inkişafına göstərilən qayğının daha bir ifadəsi olduğunu bildirərək demişdir: Ölkəmizdə elmin inkişafı həmişə diqqət mərkəzində olub. Görkəmli Azərbaycan şairi Nizami Gəncəvi on ikinci əsrdə elmin cəmiyyətdəki rolunu yüksək dəyərləndirərək: “Qüvvət elmdədir, başqa cür heç kəs, heç kəsə üstünlük eyləyə bilməz” – deyirdisə, on doqquzuncu əsrdə böyük pedaqoq Məhəmməd Tağı Sidqi yazırdı: “Dünyada insanın vücudunun səmərəsi elm ilə hasil olur. Elmsiz insan meyvəsiz ağaca bənzər”. Həqiqətən də, cəmiyyətin inkişafını elmsiz təsəvvür etmək çətindir. Elm – inkişaf, yenilik, müasirlik, gələcəyə aparan yol deməkdir.

Ali Məclisin Sədri demişdir: Bu gün Azərbaycan elmi özünün inkişaf mərhələsini yaşayır. Bu inkişafa görə elmimiz ulu öndər Heydər Əliyevə borcludur. Ümummilli liderimizin ölkəmizə birinci rəhbərliyi dövründən başlayaraq elmin inkişafı sistemli xarakter almışdır. Həmin dövrdə elm infrastrukturu müasirləşdirilmiş, yeni elm və tədris müəssisələri yaradılmış, elm adamlarına və alimlərə qayğı artırılmışdı. Azərbaycan tarixinə, mədəniyyətinə, dilinə aid elmi araşdırmalar genişləndirilmiş, fundamental əsərlər yaradılmış, Elmlər Akademiyasının fəaliyyəti gücləndirilmişdi. Ulu öndərimizin bu dövrdə müəyyənləşdirdiyi elm siyasəti Azərbaycanın gələcəyinə, müstəqillik dövründə elmin inkişafına atılan mənəvi körpülər idi.

Ötən əsrin 70-ci illərində Naxçıvan Muxtar Respublikasında da elm inkişaf etdirilmiş, Azərbaycan Elmlər Akademiyasının Naxçıvan Elm Mərkəzi, Ordubad Təcrübə-Konstruktur Bürosu və Batabat Astrofizika Rəsədxanası yaradılmış, Naxçıvan Kompleks-Zona Təcrübə Stansiyası, Elmi Tədqiqat Baytarlıq Stansiyası və “Araz” Elm İstehsalat Birliyi təşkil olunmuş, elmi nəticələrin istehsalata tətbiqinə başlanılmışdı.

Qeyd olunmuşdur ki, xalqımızın böyük oğlu siyasi hakimiyyətdən istefa verəndən sonra elmin inkişafı diqqətdən kənarda qalmışdı. İş o yerə çatmışdı ki, hətta Azərbaycan Elmlər Akademiyasının ləğv olunması barədə təkliflər də səsləndirilirdi. Bu cür tendensiyalı yanaşma Elmlər Akademiyasının fəaliyyətini məhdudlaşdırmış, elmi işçilər ixtisar olunmuş, ölkədən “beyin axını”na yol verilmişdi. 1993-cü ildə ümummilli liderimizin ali hakimiyyətə qayıdışı Azərbaycan elmini məhv olma təhlükəsindən xilas etdi. Ölkəmizdə elmin inkişafı yeni mərhələyə qalxdı. Akademiyaya yüksək status verildi və bununla da inkişafın əsas təminatçısı kimi elmin rolu və əhəmiyyəti artırıldı. Ulu öndərimizin elmin inkişafı sahəsində qəbul etdiyi mühüm qərarlardan biri də Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsinin təsis edilməsidir. Bu müdrik qərardan sonra muxtar respublikada elmi-tədqiqat işləri gücləndirilmiş, Naxçıvanın tarixinin, arxeologiyasının, etnoqrafiyasının və təbii sərvətlərinin öyrənilməsi ilə bağlı tədqiqatlar aparılmışdır.

Ali Məclisin Sədri demişdir: Elmi tədqiqatlar o vaxt ideyadan əməli işə keçir ki, onun reallaşmasına şərait yaradılsın. Bu gün Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin diqqət və qayğısı ilə ölkəmizdə və onun Naxçıvan Muxtar Respublikasında elm infrastrukturu tamamilə yenidən qurulub. Azərbaycan elmi qabaqcıl dünya təcrübəsi əsas götürülərək inkişaf etdirilir. Naxçıvan Muxtar Respublikasında da elmin iqtisadiyyata tətbiqi dayanıqlı inkişafın əsas şərtidir. Artıq muxtar respublikada həyata keçirilən iqtisadi islahatlar ciddi elmi-nəzəri əsaslara söykənir.

Ali Məclisin Sədri Azərbaycan Milli Elmlər Akademiyası Rəyasət Heyətinin Naxçıvanda keçirilən iclasının Naxçıvanın zəngin təbii sərvətlərinin öyrənilməsi sahəsində yeni istiqamətlər açacağına, alim və tədqiqatçılarımızın əməyi nəticəsində muxtar respublikanın elmi potensialının daha da artacağına əminliyini bildirmiş, iclas iştirakçılarına bu işdə uğurlar, elmi tədqiqatlarda səmərəlilik arzulamışdır.

İclasda çıxış edən Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti, akademik Akif Əlizadə demişdir ki, Azərbaycanın elmi potensialının böyük bir hissəsi Naxçıvanda cəmləşmişdir, bu qədim diyar tarixən Azərbaycanın elm və təhsil mərkəzlərindən biri olmuş, burada görkəmli ziyalılar, elm və mədəniyyət xadimləri yetişmişdir. Əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş və ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə uğurla həyata keçirilən sürətli sosial-iqtisadi inkişaf xətti Naxçıvanı əsl inkişaf və tərəqqiyə qovuşdurmuşdur. Hazırda bu qədim Azərbaycan torpağında qədimliklə müasirlik vəhdət təşkil edir. Naxçıvanın inkişafı bir tərəfdən alimlərin qarşısında böyük imkanlar açır, digər tərəfdən onların qarşısında yeni vəzifələr qoyur. Son illər akademiyanın Naxçıvan Bölməsinin maddi-texniki bazasının gücləndirilməsi, strukturunun, elmi prioritetlərinin müəyyənləşdirilməsi sahəsində də kompleks tədbirlər görülmüşdür. Artıq Naxçıvan Bölməsinin elmi nəticələrinin məhsulu olan akademik nəşrləri ölkəmizdə rəğbətlə qarşılanan qiymətli elmi əsərlərdir. Burada elmdən təcrübəyə istiqamətində görülən işlər bir nümunə gücündədir.

Qeyd olunmuşdur ki, Milli Elmlər Akademiyasında ölkəmizin sürətli inkişafı ilə həmahəng olan islahatlar aparılır. Son illər idarəetmə və təşkilati sistem əsaslı olaraq təkmilləşdirilmiş, elmi müəssisələrin fəaliyyətinin məqsədyönlü koordinasiyası üçün bir sıra mühüm tədbirlər həyata keçirilmişdir.

Ardı 2-ci səhifədə

2014-cü il akademiya üçün onunla əlamətdar olmuşdur ki, ölkə Prezidenti Azərbaycan Milli Elmlər Akademiyasının 70 illik yubileyinin qeyd olunması ilə bağlı sərəncam imzalamışdır. Həmçinin ötən il Azərbaycan Milli Elmlər Akademiyasının təşkilatçılığı ilə Bakı Elm Festivalı, eyni zamanda Azərbaycan alimlərinin I Qurultayı keçirilmişdir. Bu gün ölkəmizdə elm və təhsilin uğurlu inteqrasiyasına nail olmaq istiqamətində ardıcıl tədbirlər görülür. Artıq bu il ilkin olaraq 7 ixtisas üzrə akademiyada magistratura təhsili həyata keçiriləcəkdir. Akademiyanın Naxçıvan Bölməsi ilə Naxçıvan Dövlət Universiteti arasındakı uzunillik əməkdaşlıq təcrübəsi elm və təhsilin inteqrasiyası üçün bir nümunədir.

Akif Əlizadə muxtar respublikada elmin inkişafı sahəsində görülən işlərə və iclasın yüksək səviyyədə təşkilinə görə Azərbaycan Milli Elmlər Akademiyasının Rəyasət Heyəti adından Ali Məclisin Sədrinə minnətdarlıq etmişdir.

Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti, akademik Akif Əlizadə arxeologiya elminin inkişafı sahəsindəki xidmətlərinə görə Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü, akademiyanın Naxçıvan Bölməsinin Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun şöbə müdiri Vəli Baxşəliyevə akademiyanın Fəxri fərmanını təqdim etmişdir.

Tədbirdə Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyev "Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsinin elmi prioritetləri və vəzifələri" mövzusunda çıxış edərək demişdir ki, bölmənin tərkibində 4 elmi tədqiqat institutu, Əlyazmalar Fondu və Batabat Astrofizika Rəsədxanası fəaliyyət göstərir. Son illər yeni binaların istifadəyə verilməsi, yaradılan şərait əməkdaşların fəaliyyətini xeyli yaxşılaşdırmışdır. Bu günə qədər muxtar respublikada 50-dən artıq beynəlxalq səviyyəli konfrans və simpozium keçirilmişdir. Əlyazmalar Fondunda 457 əlyazma və qədim kitablar toplanmışdır. Hazırda bölmədə 5 ixtisas üzrə 2 Dissertasiya Şurası fəaliyyət göstərir. Son illər 158 nəfər fəlsəfə doktoru, 34 nəfər isə elmlər doktoru dissertasiyası müdafiə etmişdir.

"Naxçıvan Muxtar Respublikasının dərman bitkiləri" mövzusunda məruzə edən Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsinin Bioresurslar İnstitutunun direktoru, akademik Tariyel Talıbov demişdir ki, muxtar respublikanın biomüxtəlifliyinin öyrənilməsi üçün zəruri şərait yaradılmışdır. Bioresurslar İnstitutunun əməkdaşları mütəmadi olaraq mövcud sahələrdə dənli-taxıl, paxlalı, meyvə-giləmeyvə, bostan-tərəvəz və digər istiqamətlərdə elmi-tədqiqat işləri aparırlar. Hazırda muxtar respublika ərazisində 2900 növdən çox yabanı ali sporlu, çılpaqtoxumlu və örtülütoxumlu bitkilər yayılmışdır. Bu da 5000-ə yaxın ölkə florası növlərinin 58 faizini təşkil edir. Azərbaycan Respublikasında mövcud olan 638 növ onurğalı heyvanın da 61 faizi muxtar respublika ərazisində yaşayır. Muxtar respublikanın flora biomüxtəlifliyinə daxil olan 1200-dən çox faydalı və 800 növə yaxın dərman bitkisi vardır. Aparılan ən mühüm işlərdən biri də bu dərman bitkilərinin öyrənilməsi və istifadəsi istiqamətində olmuşdur.

Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü, akademiyanın Naxçıvan Bölməsinin Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun şöbə müdiri Vəli Baxşəliyev "Naxçıvanın arxeoloji abidələrinin öyrənilməsi" mövzusunda məruzə etmişdir. Qeyd olunmuşdur ki, Naxçıvan antik, orta əsrlər və müasir dövr maddi-mədəniyyət nümunələri və tarixi abidələrlə zəngindir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Naxçıvan Muxtar Respublikası ərazisindəki tarix və mədəniyyət abidələrinin qorunması və pasportlaşdırılması işinin təşkili haqqında" 6 dekabr 2005-ci il tarixli Sərəncamı abidələrin qeydiyyata alınmasında və qorunmasında mühüm əhəmiyyət kəsb etmişdir. Sərəncamın icrası ilə əlaqədar aparılan tədqiqatlar nəticəsində muxtar respublika ərazisində 1200-dən çox tarix və mədəniyyət abidəsi qeydə alınmışdır ki, onların da əksəriyyəti arxeoloji abidədir.

Azərbaycan Milli Elmlər Akademiyası Rəyasət Heyətinin iclasında müzakirə olunan məsələlərə dair qərar qəbul olunmuşdur.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsinin Distant Təhsil Mərkəzinin açılışı olmuşdur

Azərbaycan Milli Elmlər Akademiyası Rəyasət Heyətinin üzvləri Naxçıvana gəlmişlər. İyulun 6-da Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti, akademik Akif Əlizadə və akademiyanın Rəyasət Heyətinin üzvləri Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin Naxçıvan şəhərində əzəmətlə ucalan abidəsini ziyarət edərək gül dəstələri düzmüş, Heydər Əliyev Muzeyində olmuşlar.

Muzeylə tanışlıq zamanı ulu öndərin həyat və fəaliyyəti, siyasi-nəzəri irsi haqqında ətraflı məlumat verilmişdir. Bildirilmişdir ki, burada nümayiş etdirilən eksponatlar ulu öndərin ictimai-siyasi fəaliyyətini, keçdiyi həyat yolunu özündə əks etdirən dəyərli mənbələrdir.

Azərbaycan Milli Elmlər Akademiyası Rəyasət Heyətinin üzvləri ulu öndər Heydər Əliyevin abidəsi önündə xatirə şəkli çəkdirmişlər.





Sonra Azərbaycan Milli Elmlər Akademiyası Rəyasət Heyətinin üzvləri Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsinin Bioresurslar və Təbii Ehtiyatlar institutlarında olmuş, bölmənin Distant Təhsil Mərkəzinin açılışında iştirak etmişlər.

Məlumat verilmişdir ki, bu gün Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsində elmi-texniki yeniliklərin ən son nailiyyətləri tətbiq olunur. Son illər müasir informasiya texnologiyalarından istifadə elmi nailiyyətlərin artırılmasına səbəb olmuş, elektron kitabxana yaradılmışdır. Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsinin Distant Təhsil Mərkəzinin fəaliyyətə başlaması da bu baxımdan mühüm əhəmiyyət daşıyır.

Distant Təhsil Mərkəzi yaradılarkən bölmənin böyük akt zalında videokonfrans, kiçik akt zalında isə audiokonfrans sistemləri qurulmuş, hər iki zala optik kabel çəkilmişdir. Mərkəzdə proyektor, kamera, 12 mikrofon və digər avadanlıqlar quraşdırılmışdır. Distant Təhsil Mərkəzi ölkəmizin və dünyanın istənilən elm mərkəzi ilə teleköprülərin yaradılmasına, eləcə də müştərək videokonfransların keçirilməsinə imkan verəcəkdir.

Mərkəzlə tanışlıqdan sonra Azərbaycan Milli Elmlər Akademiyası İnformasiya Texnologiyaları İnstitutu ilə videobağlantı yaradılmışdır.

**"Şərq qapısı"**

*Heç kimə sirr deyildir ki, dünyada ən qədim insan məskənlərindən və sivilizasiya mərkəzlərindən biri olan Azərbaycan regionlarının tarixinin dərindən araşdırılması, yazılması, elmi ictimaiyyətə və geniş oxucu kütləsinə çatdırılması tarixçi alimlərimizin qarşısında duran başlıca vəzifələrdən biridir. Ölkəmizdə də bu istiqamətdə ilk addımların atılmasına, bəzi əsərlərin yazılmasına baxmayaraq, görülməli işlərin hələ çox olduğu şübhə doğurmamalıdır. Atılan addımlar ilk olsa da, onları uğurlu saymaq olar. Bu baxımdan təkcə ölkəmizdə deyil, onun hüdudlarından kənarda da yaxşı tanınan görkəmli alimlər – akademik İsa Həbibbəyli, akademik İsmayıl Hacıyev, AMEA-nın müxbir üzvləri Fəxrəddin Səfərli, Qadir Qədirzadə və Vəli Baxşəliyevin daxil olduğu redaksiya heyəti və digər alimlər tərəfindən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbovun 2012-ci il 6 avqust tarixli Sərəncamına əsasən, "Naxçıvan tarixi" çoxcildliyinin yazılması və nəfis şəkildə nəşr edilməsi Azərbaycan elmində atılmış uğurlu addımlardan biri kimi qiymətləndirilməlidir. Üçcildlik "Naxçıvan tarixi"nin hələlik iki cildinin nəşr edilməsi təkcə müəlliflərin deyil, bütövlükdə Azərbaycan tarixşünaslığının böyük uğurlarından biridir.*



## Böyük zəhmətin uğurlu nəticəsi: "Naxçıvan tarixi"

"Naxçıvan tarixi"ni yazarkən müəlliflər ümummilli lider Heydər Əliyevin məşhur kəlamını epiqraf kimi qəbul etmişlər: "Tarixi olduğu kimi qəbul etmək, dərk etmək və olduğu kimi qiymətləndirmək lazımdır". Əsəri zəngin arxeoloji materiallar, ən mötəbər arxiv materialları və müxtəlif dillərdə olan mövcud ədəbiyyat əsasında yazan müəlliflər başlanğıcdan sonadək bu tövsiyəyə sadiq qalmış, Naxçıvanın gerçək tarixini qələmə almış, belə demək mümkünsə, bölgə tarixi yaradanlara sadiq qalmışlar.

Giriş, yeddi fəsil, tarixi-siyasi xronologiya, xəritələr, illüstrasiya və şəkillərdən ibarət olan "Naxçıvan tarixi"nin birinci cildi (Naxçıvan, "Əcəmi" Nəşriyyat-Poliqrafiya Birliyi, 2013, 452 səh.) Naxçıvan tarixinin ən qədim dövrlərindən başlayaraq XVIII əsrin ortalarınadək olan dövrü əhatə edir. Bu cilddə, ilk növbədə, Naxçıvanın təbii-coğrafi şəraiti təsvir edilmişdir. Müəlliflər haqlı olaraq vurğulamışlar ki, qədim karvan yollarının üstündə yerləşən, çox kiçik bir ərazidə müxtəlif landşaft kompleksləri və iqlim tiplərinə, zəngin təbii sərvətlərə malik olan qədim Naxçıvan tarixinin formalaşmasında coğrafi amillər mühüm rol oynamışdır.

"Naxçıvan qədim dövrdə" adlanan birinci fəsildə Naxçıvan ərazisində yaşamış insanların qədim Daş dövründən Erkən Dəmir dövrünədək keçdikləri inkişaf mərhələləri işıqlandırılmışdır. Burada arxeoloji, yazılı və etnoqrafik mənbələrin Naxçıvan tarixinin öyrənilməsindəki rolu və yeri tədqiq edilmişdir. Naxçıvanın arxeoloji baxımdan tədqiqinə xüsusi diqqət yetirən müəlliflər vurğulamışlar ki, Cənubi Qafqazda əkinçilik mədəniyyətinin öyrənilməsi Naxçıvandakı I Kültəpə abidəsindən başlanır. Onlar Naxçıvan tarixinin öyrənilməsində Neolit və Eneolit abidələrinin böyük əhəmiyyətinin olduğunu qeyd etmişlər. Eneolit dövründən etibarən Naxçıvanda mədən işləri, xüsusilə duz çıxarılmasının geniş miqyas aldığı vurğulanmışdır. Naxçıvanın qədim qayaüstü abidələrlə də məşhur olduğu qeyd və şərh edilmişdir. Bütün bu və digər məsələləri müfəssəl bir şəkildə tədqim edən müəlliflər belə bir nəticə çıxarmışlar ki, Xocalı-Gədəbəy mədəniyyəti qədim dövrdən bu ərazidə məskunlaşan aborigenlər tərəfindən yaradılmışdır. Bu isə Naxçıvana dair əsassız iddiaları alt-üst edir.

Naxçıvanda siyasi və sosial-iqtisadi münasibətlər əsrin "Naxçıvan e.ə. IX-b.e.II əsrlərində" adlanan ikinci fəslində nəzərdən keçirilmişdir. Burada Naxçıvanda yaşayanların xarici hücumlara qarşı müqaviməti əks olunmuş, Atropatena dövlətinin tərkibində Naxçıvanın vəziyyəti izah edilmişdir.

"Naxçıvan əhalisinin etnogenezi tarixi" adlanan üçüncü fəsildə əhalinin etnik tərkibi və "Naxçıvan" sözünün mənşəyi müxtəlif xarakterli mənbələr əsasında izah edilmişdir. "Naxçıvan" sözünün mənşəyinə dair çoxlu baxışların mahiyyətini təqdim edən müəlliflərin fikrincə, indiyədək Naxçıvan əhalisinin etnogenezi ilə əlaqədar olaraq sistemli tədqiqat işləri aparılmamışdır. Araşdırma nəticəsində belə bir qənaətə gəlinmişdir ki, "nax" tayfa adı qədim türk mifində olan Nuh adından gəlmədir. Bu isə Naxçıvanın, deməli, bütövlükdə Azərbaycanın dünyanın qədim sivilizasiya mərkəzlərindən biri olduğunu göstərir.

Naxçıvanda feodal münasibətlərin meydana gəlməsi və inkişafı prosesləri, erkən orta əsrlərdə türk tayfalarının – hunlar, bolqarlar, xəzərlər, kəngərlər, sabirlər, peçeneqlər, suvarlar və b. bölgədə yenidən məskunlaşması məsələləri "Naxçıvan erkən orta əsrlər dövründə" adlanan dördüncü fəsildə tədqiq olunmuşdur. Əsərdə bələqədərki dövrdə Naxçıvanda və çevrəsində etnik-mədəni münasibətlər, Xilafət ordularının Naxçıvanı işğal etməsi, İslam dininin qəbul olunması, idarəetmə sistemi, şəhərlər, sənətkarlıq, ticarət, epiqrafik abidələr və sair məsələlər şərh edilmişdir. Müəlliflər Ordubad şəhərinin əsasının guya XII əsrdə qoyulmasına dair iddiaların heç bir əsası olmadığını arxeoloji və ən mötəbər yazılı mənbələrlə sübut etmişlər. Aparılan tədqiqat nəticəsində müəlliflər Naxçıvanın yüksək mədəniyyət, sənət və ticarət mərkəzi olduğunu xüsusilə vurğulamışlar.

X-XIII əsrlərdə Naxçıvan müxtəlif adlı Azərbaycan dövlətlərinin tərkibində olmuşdur. Bununla belə, X əsrin 80-ci illərində Azərbaycanda yaranmış siyasi şəraitlə bağlı olaraq Naxçıvanda müstəqil və ya yarımmüstəqil "Naxçıvanşahlıq" yaranmışdır. Əsərdə həmin məsələ tarixi məxəzlərə istinad edilərək şərh olunmuşdur. Bütün bu məsələlər, o cümlədən oğuz türkləri olan səlcuqların Naxçıvana gəlişi və Naxçıvanın Atabəylər dövlətinin tərkibində olması, iqtisadi həyat, mədəniyyət problemləri əsərin "Naxçıvan X-XIII əsrlərdə" adlanan beşinci fəslində tədqiq edilmişdir. Müəlliflər X-XII əsrlərdə Naxçıvanın Yaxın, Orta Şərqin mühüm mədəniyyət mərkəzlərindən birinə çevrildiyini yazaraq vurğulamışlar ki, bu dövrdə Naxçıvanda incəsənət və memarlıq inkişaf etmiş, Azərbaycan alimləri dünya elminin zənginləşməsində müstəsna rol oynamışlar.

"Naxçıvan XIII-XV əsrlərdə" adlanan altıncı fəsil Naxçıvan tarixinin, təxminən, üçyüzillik bir dövrünü əhatə edir. Burada XIII əsrin ilk rübündə Azərbaycanın monqol hücumlarına məruz qalması, onun buraxdığı ağır izlər araşdırılmış və konkret tarixi fakt və materiallarla şərh edilmişdir. Fəsildə Toxtamışın və Əmir Teymurun Naxçıvana qarşı amansız hücumlarına həsr edilmiş hissə də maraqla oxunur. Naxçıvanın Qaraqoyunluların hakimiyyəti altında olmasını araşdıran müəlliflər XI əsrin başlanğıcından etibarən Naxçıvanın Teymurilərin, Cəlairilərin və Qaraqoyunluların mübarizə meydanına çevrilməsini və onun nəticələrini izah etmişlər. Daha sonra fəsildə Ağqoyunluların hakimiyyəti illərində bu yurdda siyasi, ictimai-iqtisadi həyat təhlil edilmişdir. Fəsildə maraqla oxunan hissələrdən biri Naxçıvanda sufiliklə bağlı mərkəzlərə həsr edilmiş yerlərdir.

Tarixi məxəzlərdən aydındır ki, Səfəvilərin mərkəzləşdirilmiş hakimiyyəti dövründə Naxçıvan bütün sahələrdə böyük inkişaf yolu keçmişdir. Bu məsələlər əsərin "Naxçıvan Səfəvilər dövründə" adlanan yeddinci fəslində tədqiq edilmişdir. XVI əsrdə və XVIII əsrin birinci qərinəsində Naxçıvanda siyasi şəraiti təhlil edən müəlliflər yazırlar ki, Səfəvilərin hakimiyyətinin son dövrlərində Azərbaycan ərazisində parçalanma baş verdi. Parçalanma bütün ölkədə olduğu kimi, Naxçıvanda da təsərrüfat həyatına ağır təsir etdi. Həmin dövrdə bu diyarın iqtisadi həyatını araşdıran müəlliflər, ilk növbədə, kənd təsərrüfatı, sahibkarlıq, ticarət məsələlərinə diqqət yetirmişlər. Naxçıvanın sənətkarlıq mərkəzi kimi rolu xüsusi vurğulanmışdır. Burada şəhərlərin ticarət və sənətkarlıq yanaşı, inzibati-siyasi və elmi-mədəni mərkəzlər rolunu oynaması mənbələrə istinad

*Ardı 3-cü səhifədə*

edilərək konkret faktlarla tədqiq olunmuş, xüsusilə xalçaçılıq sənətinin geniş yayıldığına diqqət verilmişdir. Şəhərlərdəki karvansaraların da ticarət mərkəzlərindən biri olduğu vurğulanmışdır.

Mənbələrdən məlum olduğu kimi, III Şah Abbasın ölümündən sonra özünü şah elan edən Nadirqulu xanın hakimiyyətə gəlişi ilə Əfşarların idarəçiliyi dövrü başlayır. O, Səfəvilər dövrünün inzibati ərazi bölgülərini ləğv edir, yeni sistemi tətbiq edir. Bu məsələləri araşdıran müəlliflər həyata keçirilən dəyişikliklərin ölkə həyatına təsirini izah edərkən Nadir şahın hakimiyyətinin ilk illərinin Azərbaycan üçün ağır keçdiyini qeyd etmişlər. Daha sonra fəsildə maarif, elm, ədəbiyyat, epiqrafik abidələr, memarlıq və incəsənət və digər məsələlər tədqiq olunarkən Naxçıvanda göstərilən sahələrin yüksək səviyyədə olduğu vurğulanmışdır.

Araşdırılan dövrə aid tarixi-siyasi xronologiyanın, istifadə edilmiş mənbə və ədəbiyyatın, xəritələrin, şəkillərin, arxeoloji abidələrin xəritələrinin verilməsi ilə başa çatan birinci cild tamamlanmışdır. Bu, uğurlu bir tarixi tədqiqat əsəri təsiri bağışlayır.

XVIII əsrin ortalarından başlayaraq XX əsrin 30-cu illərinin sonunadək olan dövrü əhatə edən "Naxçıvan tarixi"nin ikinci cildinin (Naxçıvan, "Əcəmi" Nəşriyyat-Poliqrafiya Birliyi, 2014, 528 səh.) "Naxçıvan xanlığı" adlanan birinci fəslində Səfəvi dövləti zəiflədikdən sonra yaranmış Əfşarlar sülaləsinin hakimiyyəti illərində Naxçıvanda sosial-iqtisadi və siyasi şərait şərh edilmiş, xanlığın yaranmasını şərtləndirən amillər araşdırılmışdır. Naxçıvan xanı I Kalbalı xanın müstəqil hakimiyyəti dövründə Naxçıvanın intibah dövrünü yaşadığı tarixi mənbələr əsasında qeyd edilmişdir. Bu dövrdə Naxçıvan xanlığı qonşu ölkələrlə və xanlıqlarla da sıx münasibətlər saxlamışdır. Xüsusən Gürcüstan, Osmanlı dövləti ilə qarşılıqlı ticarət və başqa əlaqələr mövcud idi. Müəlliflər daha sonra XIX əsrin əvvəllərində dövrün böyük dövlətləri arasında gedən mübarizəni araşdırmış, regionda cərəyan edən hadisələrin Naxçıvana təsirini və işğalı asanlaşdırdığını göstərmişlər. Çar Rusiyası tərəfindən işğal edilməsi ərəfəsində Naxçıvanın əhalisinin tərkibini tədqiq edən müəlliflər vurğulamışlar ki, XIX əsrdə Naxçıvanın əhalisi azalmışdı. Bunun da əsas səbəbi regionda aparılan üzücü müharibələr nəticəsində yaranmış şərait və ərazi işğalları idi. Qeyd etmək lazımdır ki, birinci fəsildə Naxçıvan xanlığının əhalisinin etnik tərkibinə dair məsələlərin ən mötəbər mənbələr əsasında tədqiq edilməsi bu ərazinin etnomədəni mənsubluğu haqqında aydın təsəvvür yaradır, mübahisələrə və əsassız iddialara qətiyyən yer qoymur. Naxçıvanda sosial-iqtisadi həyat, şəhərlər, sənətkarlıq və ticarəti şərh edən, mədəniyyətin inkişafına diqqət yetirən müəlliflər Naxçıvan xanlığında mədəniyyətin yüksək səviyyədə inkişaf etdiyini xüsusi vurğulamışlar. Ən mötəbər mənbələr əsasında Naxçıvanda memarlıq sənətinin üstün olmasının və digər ölkələrə də təsir etməsinin elmi şəkildə əsaslandırılması, şübhəsiz, əsərin əhəmiyyətini artıran amillərdən biridir.

Kitabın "Naxçıvanın Rusiya tərəfindən işğalı" adlanan ikinci fəslində, ilk növbədə, XVII əsrin sonu – XIX əsrin əvvəllərində Naxçıvanda ictimai-siyasi şərait, I Rusiya-İran müharibəsi dövründə Naxçıvanın vəziyyəti, Gülüstan sülh müqaviləsi, II Rusiya-İran müharibəsi və Naxçıvan, Naxçıvanın Rusiya qoşunları tərəfindən işğal edilməsi, Türkmənçay müqaviləsinin Naxçıvanın taleyinə təsiri məsələləri tədqiq edilmişdir. Fəsildə diqqəti ən çox cəlb edən məsələlərdən biri işğaldan sonra ermənilərin tarixi Azərbaycan torpağı olan Naxçıvana köçürülərək yerləşdirilməsidir. Müəlliflərin ən mötəbər mənbələrə istinad edərək ermənilərin Naxçıvana köçürülməsi məsələlərini tədqiq edərək, ermənilərin gətirilib yerləşdirilmələrinə dair ilk mənbələr əsasında mükəmməl tərtib etdikləri cədvəlləri uğurlu saymaq olar. İstifadə edilən rəsmi statistik materiallar bir daha göstərir ki, ermənilər Naxçıvanda aborigen deyil, gəlmə olmuşlar. Çar hökuməti azərbaycanlılara məxsus torpaqlara yerləşdirilmiş ermənilərə bir sıra güzəştlər vermiş, onlar müəyyən müddətdə vergi ödəməkdən azad edilmiş, inzibati idarəçilikdə təmsil olunmuş azərbaycanlılar isə tədricən sıxışdırılmağa başlanmışlar.

"Naxçıvan XIX əsrdə" adlanan üçüncü fəsildə işğaldan sonrakı dövrdə Naxçıvan tarixinin müxtəlif tərəfləri tədqiq edilmişdir. Məlum olduğu kimi, işğal bu diyarın sosial-iqtisadi həyatına mənfi təsir göstərmişdir. Gəlmə ermənilər onların tarixi torpaqlarına yerləşdirilmiş, aborigen əhali olan azərbaycanlıların köçüb getməsi artmışdır. İşğaldan sonra yaranmış demoqrafik vəziyyətin konkret fakt və materiallar əsasında cədvəllərdə təqdim edilməsi müsbət qiymətləndirilə bilər. Naxçıvanın təsərrüfat həyatı, aqrar münasibətlər və bu sahədə aparılan islahatlar, sənətkarlıq və sənaye, kapitalist münasibətlərinin meydana gəlməsi və inkişafı da işıqlandırılmışdır. Fəsildə diqqəti cəlb edən problemlərdən biri çarizmin müstəmləkə siyasətinə qarşı Naxçıvanda aparılan mübarizə məsələlərinin işıqlandırılmasıdır.

Əsərin "Naxçıvan XX əsrin əvvəllərində" adlanan dördüncü fəsli qeyd olunan dövrdə Naxçıvanda sosial-iqtisadi şəraitin təhlili ilə başlayır, daha sonra 1905-1907-ci illərdə ermənilərin Naxçıvanda törətdikləri soyqırımları, onların səbəbləri, gedişi və nəticələri zəngin fakt və materiallar əsasında təqdim edilir. Belə bir nəticəyə gəlinmişdir ki, törədilən kütləvi qırğınlar nəticəsində Naxçıvanda əhalinin sayı iki dəfədən çox azalmışdı. Lakin bütün qəddarlıqlara baxmayaraq, ermənilər azərbaycanlıları tamamilə məhv edə bilmədilər.

Birinci Dünya müharibəsi Azərbaycana, o cümlədən Naxçıvana da təsir etmişdir. Fəsildə göstərilmişdir ki, Birinci Dünya müharibəsi illərində Naxçıvanda əhalinin əhvali-ruhiyyəsi birbaşa türk cəbhəsindəki vəziyyətlə bağlı olmuşdur. Rusiya təbəələri olmalarına baxmayaraq, azərbaycanlılar türklüyün və islamın mərkəzi olan Türkiyənin müharibədə yenilməsini istəməmiş, Osmanlı dövlətinə rəğbət bəsləmişlər. Müharibənin gedişində şöhrət qazanmış Naxçıvandan çıxan generalların, xüsusən Hüseyn xan Naxçıvanskinin fəaliyyətinə də xüsusi diqqət yetirən müəlliflər qeyd etmişlər ki, "Vəhşi diviziya"nın azərbaycanlılardan ibarət "Tatar alayı"nın tərkibində naxçıvanlılar da olmuşdur.

Fəsildə Araz-Türk Respublikasının dövlət və hökumət orqanlarının təşkilinə və Azərbaycan Xalq Cümhuriyyəti ilə əlaqələr yaratmağa çalışmasına dair məsələlər şərh edilmişdir. Belə qənaətə gəlinmişdir ki, Araz-Türk Respublikası qısa müddət ərzində fəaliyyət göstərməsinə baxmayaraq, bölgənin taleyində mühüm rol oynamış və Azərbaycanın ərazi bütövlüyünü təmin etmişdir. Daha sonra Azərbaycan Cümhuriyyətinin Naxçıvan bölgəsi ilə əlaqələri məsələsinə toxunan müəlliflər vurğulamışlar ki, AXC parlamenti və hökuməti öz fəaliyyəti dövründə Naxçıvanla bağlı məsələlərə diqqət yetirmiş, bölgənin ermənilər tərəfindən tutulmasına imkan verməmiş, ona hərbi, siyasi, maddi və mənəvi kömək etmişdir. Fəsildə erməni silahlı dəstələrinin Naxçıvana qarşı hücumlarına yerli əhalinin qəhrəmancasına müqaviməti də əks olunmuşdur.

1920-ci ilin əvvəllərində Bakıda ictimai-siyasi vəziyyətin ağırlaşması milli hökumətin Naxçıvana hərbi yardım etməsini çətinləşdirmişdi. Belə olduqda Naxçıvan rəhbərliyi Osmanlı dövlətinə yardım üçün müraciət etdi. Bundan sonra Naxçıvan əhalisi torpaqlarını ermənilərdən təmizləyə bildi. Bölgə əhalisinin igidliyi və qəhrəmanlığı sayəsində Naxçıvan diyarı Azərbaycanın tərkib hissəsi kimi qorunub saxlanıldı. Fəsildə Naxçıvana dair xarici ölkələrin siyasətlərinin mahiyyətini, dünyanın aparıcı dövlətləri olan ABŞ, İngiltərə, Fransa, Türkiyə və Almaniyanın planlarını araşdıran müəlliflər Naxçıvan əhalisinin İngiltərənin məqsədlərinin reallaşdırılmasına da imkan vermədiyini vurğulamışlar.

Əsrdə Azərbaycan sovetləşdirildikdən və bolşevik qoşunları Naxçıvana girdikdən sonra yürüdülən ermənipərəst siyasətin mahiyyəti izah edilmişdir. Müəlliflər Naxçıvanda sovet hakimiyyəti qurulduqdan sonra erməni silahlı bandalarının hücumlarının qarşısını almaq üçün A.Şadlinskinin rəhbərliyi altında qurulmuş "Qırmızı tabor"un fəaliyyətini araşdırmışlar.

Kitabda XX əsrin əvvəllərində Naxçıvanda mədəniyyət məsələləri tədqiq edilmiş, təhsilin inkişafında böyük xidmətləri olmuş maarifçilərin, Nazlı Tahirovanın 1912-ci ildə əsasını qoyduğu qız məktəbinin fəaliyyətinə xüsusi diqqət yetirilmişdir. Məktəblər şəbəkəsinin genişləndirilməsi məsələsi rəqəmlərin dili ilə izah edilmiş və belə bir qənaətə gəlinmişdir ki, XX əsrin əvvəllərində Naxçıvanda elmi fikir maarifçilik istiqamətində inkişaf etmişdir. Naxçıvanda ədəbiyyatın inkişafında mühüm rol oynamış Cəlil Məmmədquluzadə, Məhəmməd Tağı Sidqi, Məmməd Səid Ordubadi və başqa ziyalıların, "Şərqi-Rus" qəzetinin, "Molla Nəsrəddin" jurnalının fəaliyyətinə nəzər yetirilmişdir.

Azərbaycan teatr tarixində Naxçıvanın özünəməxsus yerinin olduğu məlumdur. XIX əsrin 80-ci illərində formalaşan və XX yüzilliyin əvvəllərindən fəaliyyətini genişləndirən Naxçıvan teatrında Ə.Haqverdiyevin, N.Nərimanovun, Ü.Hacıbəylinin və digər ədiblərin əsərləri oynanılmış və böyük tamaşaçı rəğbəti qazanmışdır. Müəlliflər qeyd etmişlər ki, mürtəce qüvvələrin müqavimətinə baxmayaraq, Naxçıvan teatrı milli teatrın inkişafında əhəmiyyətli rol oynamışdır. Fəsildə Naxçıvanda epiqrafik abidələr, memarlıq, incəsənətə dair məsələlər də mənbələr əsasında izah edilmişdir.

"Naxçıvan XX əsrin 20-30-cu illərində" adlanan beşinci fəsildə bolşevik işğalından sonra Naxçıvan tarixi tədqiq olunmuşdur. 1920-ci ilin aprel ayında Azərbaycanın bolşevik Rusiyası tərəfindən işğal edilməsindən sonra regionda tamamilə yeni şərait yaranmışdı. Naxçıvanda yerli əhali Azərbaycanda sovet hakimiyyətinin qurulmasını birmənalı qarşılamamışdı. Çünki bu zaman Naxçıvanda türk qoşunları var idi. İyul ayında XI ordu hissələri Naxçıvana girsə də, Ermənistan bu diyarı işğal edərək özünə birləşdirmək səylərini dayandırmadı, lakin yerli əhali qəti müqavimət göstərdi. Naxçıvan İnqilab Komitəsi əhalinin iradəsini ifadə edərək, qəbul etdiyi qətnamədə Naxçıvanı Azərbaycan SSR-in ayrılmaz hissəsi elan etdi. Bu sənəddə yazılırdı ki, "Azərbaycan Sovet Sosialist Respublikası Naxçıvan əhalisi üçün üfüqdən doğan bir şəfəqdir". Bütün bu və digər məsələləri tədqiq edən müəlliflər Naxçıvana münasibətdə mərkəzi bolşevik hakimiyyətinin ikili siyasətini, Naxçıvanın Ermənistan SSR-ə güzəştə gedilməsinə dair bəyanatın yerli əhali arasında həyəcan yaratdığını və B.Şahtaxtinskinin əhaliyə real vəziyyəti izah etməsini arxiv mənbələri əsasında araşdırmışlar. Fəsildə Naxçıvanda sovet hakimiyyəti qurulduqdan sonra proletariat diktaturası tədbirlərinin həyata keçirilməsi, dinə qarşı mübarizə məsələləri, məscidlərin, dini ziyarət yerlərinin dağıdılması və amansız repressiyalar arxiv mənbələri əsasında izah edilmişdir. Ermənistandan qovulan və Naxçıvana pənah gətirən azərbaycanlı qaçqınların vəziyyətini yaxşılaşdırmaq sahəsində görülən işlər, onların torpaq sahəsi ilə təmin edilmələri məsələlərinə əsərdə yer ayrılmışdır.

Sovetləşmədən sonra Naxçıvan tarixinin ən mühüm problemlərindən biri diyarın statusu məsələsi olmuşdur. Naxçıvan özünün strateji mövqeyinə görə nəinki qonşu dövlətlər, həmçinin dünyanın böyük dövlətləri üçün maraq kəsb etmişdir. Mürəkkəb və çətin proseslərdən keçib gələn Naxçıvanın statusu məsələsi Azərbaycanın əzəli və ayrılmaz tərkib hissəsi kimi həll edilmiş və diyara muxtariyyət statusu verilmişdir. Bu problemi araşdıran müəlliflər 1917-ci ildən sonra qarışıqlıq dövründə Naxçıvanda yaranmış ağır ictimai-siyasi şəraiti təhlil edərək vurğulamışlar ki, Rusiya və Türkiyə arasında Moskvada imzalanan 1921-ci il 16 mart tarixli, Rusiyanın vasitəçiliyi ilə Türkiyə, Azərbaycan, Gürcüstan və Ermənistan arasında 1921-ci il 13 oktyabr tarixdə imzalanan Qars müqaviləsi ilə Naxçıvanın statusuna dair məsələyə aydınlıq gətirilmişdir. Belə ki, 1917-1921-ci illərdə aparılan inadlı mübarizə, 1921-ci il rəy sorğusunun nəticəsi, bir sıra görkəmli şəxsiyyətlərin fəaliyyətləri, Türkiyənin ədalətli mövqe tutması və köməyi, beynəlxalq Moskva və Qars müqavilələrinin şərtləri Naxçıvan diyarına Azərbaycanın tərkibində muxtariyyət statusunun verilməsi ilə nəticələnmişdir.

Muxtar respublikanın yaradılmasını Naxçıvan tarixinin ən mühüm hadisələrindən biri kimi qeyd edən müəlliflər rəsmi dövlət və partiya sənədləri əsasında Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının yaradılması məsələsini araşdırmışlar. Moskva və Qars müqavilələrinin mövcudluğuna baxmayaraq, Mərkəzi hökumətin Naxçıvan torpaqlarını hissə-hissə kəsərək Ermənistana verməsi qeyd edilmişdir. Arxiv sənədlərinə əsaslanaraq yazılmışdır ki, Zaqafqaziya Mərkəzi İcraiyyə Komitəsinin 1929-cu il 18 fevral tarixli qərarı ilə Naxçıvanın 657 kv. km ərazisi – Şərur qəzasının Qurdqulaq, Xaçık, Horadiz, Naxçıvan qəzası Şahbuz nahiyəsinin Oğbin, Ağxaç, Almalı, İtqıran, Sultanbəy kəndləri, Ordubad qəzasının Qorçevan kəndi, habelə Kilit kəndi torpaqlarının bir hissəsi Ermənistana verilmişdir.

Fəsildə Naxçıvanda sovet hakimiyyəti qurulduqdan sonra əkilən torpaqların bir hissəsinin istifadəsiz qalması, kənd təsərrüfatı məhsullarının istehsalının azalması və onun səbəbləri və sair məsələlər izah edilmişdir. Daha sonra isə yazılmışdır ki, sovet hakimiyyətinin həyata keçirdiyi tədbirlərdən biri Azərbaycanın hər yerində olduğu kimi, Naxçıvanda da kollektivləşmənin həyata keçirilməsi olmuşdur. Bu tədbir muxtar respublikada da narazılıq yaratmışdır. Kolxozlara daxil olmayan kəndliləri sovet hakimiyyəti qolçomaq və bandit adlandıraraq sürgün, həbs etmiş, səsvermə hüququndan məhrum etmişdir. Beləliklə, mənbələr təsdiq edir ki, Naxçıvanda kollektivləşmə zorakı yollarla həyata keçirilmişdir. Kollektivləşmə əleyhinə qaçaq və kəndli çıxışları olmuş, lakin amansızlıqla yatırılmışdır.

Tarixi mənbələr sübut edir ki, sovet hakimiyyətinin antimilli siyasətinə qarşı Naxçıvanda da üsyanlar baş vermiş, əhali müstəqillik uğrunda mübarizə aparmışdır. Üsyanlar muxtar respublikanın Cəhri, Qaraçuq, Tırkeş, Keçili, Milax və başqa kəndlərində olmuş, sovet hakimiyyətinə qarşı əsl partizan döyüşləri getmişdir. Lakin sovet qoşun hissələri üsyanları yatırmış və üsyançıları öldürmüş, sürgün və ya həbs etmişdir. Qolçomaqların evləri və mülkləri yandırılmışdır.

Naxçıvan tarixinin mühüm hadisələrindən biri 1926-cı il aprelin 18-də Naxçıvan MSSR-in 4 bölmə, 63 maddədən ibarət olan I Konstitusiyasının qəbul edilməsi olmuşdur. Fəsildə Konstitusiyanın qəbulu prosesi, müddəaları təhlil edilmiş və əhəmiyyəti göstərilmişdir. Naxçıvan MSSR-in növbəti Konstitusiyası 1937-ci il sentyabrın 18-də qəbul edilmişdir.

Ötən əsrin 20-30-cu illərində ağır Stalin repressiyaları bu diyardan da yan keçməmişdir. Muxtar vilayətdə antisovet və quldur adı altında 35 min nəfər repressiya edilmişdir. Azərbaycan diviziyasının komandiri Qambay Vəzirov, general Cəmşid Naxçıvanski, torpaq komissarı Heydər Vəzirov və başqa hərb, sovet və partiya xadimləri də amansız repressiyalara məruz qalmışlar. Bu məsələləri araşdıran müəlliflər belə bir qənaətə gəlmişlər ki, sovet hökumətinin hüquq-mühafizə orqanları tərəfindən tətbiq edilən siyasi repressiyalar planlı, düşünülmüş və vahid ssenari əsasında həyata keçirilmişdir.

Məlum olduğu kimi, sovet hakimiyyəti qurulduqdan sonra Naxçıvanda da mədəni quruculuğa başlanıldı, təhsil, elm, mədəniyyət və incəsənət sahələrində yeni siyasət yürüdülməyə başlandı. Mətbuatın vəziyyəti tədqiq edilərkən sovet dövründə Naxçıvanda müntəzəm və davamlı nəşr edilən qəzetin "Şərq qapısı" olduğu, Naxçıvanda mətbuatın yaranması və formalaşmasının Azərbaycan mətbuatının üzvi hissəsi olduğu qeyd edilmişdir. Muxtar respublika mətbuatı bu regionda gedən ictimai-siyasi prosesləri, baş verən ədəbi-mədəni hadisələri əks etdirmiş və onun ətrafında yaradıcı qüvvələr formalaşmışdır.

Sovet hakimiyyətinin 20-30-cu illərində Naxçıvanda ədəbiyyatın vəziyyəti də fəsildə araşdırılmışdır. Yerli şair və yazıçıların yaradıcılığını təhlil edən müəlliflərin fikrincə, ən böyük canlanma şeir sahəsində baş vermişdir. XX əsrin əvvəllərində Müzəffər Nəsirli, Hüseyn Əzim, Əbdül Kazım, Məhəmməd Rəsizadə və başqaları klassik və müasir üslubda şeirlər yazmışlar. Mövcud ideoloji çətinliklərə baxmayaraq, 20-30-cu illərdə Naxçıvan ədəbi mühitində canlanma yaransa da, bu proses Stalin repressiyaları nəticəsində dayanmışdır. 20-30-cu illərdə böyük bir inkişaf yolu keçən Naxçıvan teatrı sovet hakimiyyəti illərində savadsızlığa, dini xurafata, cəhalətə, geriliyə və çadraya qarşı mübarizə aparmışdır.

İkinci cildin sonunda tarixi-siyasi xronologiya, istifadə edilmiş mənbə və ədəbiyyatlar, xəritələr və şəkillər təqdim edilmişdir. Bunlar Naxçıvan tarixi haqqında olan məlumatları uğurla tamamlayır.

Beləliklə, dediklərimizdən belə bir ümumiləşdirilmiş nəticə çıxarmaq olar ki, məqbul bir konsepsiya əsasında yazılmış əsərin strukturu qarşıya qoyulan məqsədə nail olmağa imkan vermişdir. Naxçıvan tarixinin ən mürəkkəb və çətin məsələlərinin tədqiqi yüksək peşəkarlıqla aparılmış, sadə və anlaşıqlı bir dildə, dərin məntiqlə şərh edilmişdir. Əsər yazılarkən dünya tarix elmində qəbul edilmiş ümumi metodoloji prinsiplər gözlənilmişdir. Müəlliflər məqsədlərinə nail olmuş, Azərbaycanın ayrılmaz bir parçası olan Naxçıvanın qədim və zəngin tarixinin mükəmməl tədqiqini yaza bilmişlər. Bu əsər Naxçıvan tarixinin indiyədək tədqiq edilməyən müxtəlif qatlarını araşdırmaq üçün yeni istiqamətlər açır. Hesab edirəm ki, Azərbaycan tarixşünaslığına ciddi bir töhfə olan, hazırda iki cildi işıq üzü görən "Naxçıvan tarixi" əsərinin rus və ingilis dillərinə tərcümə edilməsi faydalı olardı.

**Musa QASIMLI**
***Milli Məclisin deputatı, professor***
***"Azərbaycan" qəzeti, 5 iyul 2015-ci il***

*2015-ci il iyun ayının əvvəllərində Naxçıvan Muxtar Respublikasında yaşayan azərbaycanlı jurnalist Həsən Paşalı ilə uzun söhbətim oldu. Bu müsahibənin mövzusu Azərbaycanın mədəni dəyərləri, dini memarlıq abidələri, Türkiyə və Xəzər dənizi regionu ilə bağlı idi. Müzakirə etdiyimiz abidələr arasında erməni tarixçilər tərəfindən onlara aid edilməsi iddia edilən Akdamar kilsəsi var idi.*

# Akdamar kilsəsi haqqında yeni məlumatlar





Həsən Paşalı Akdamar kilsəsi barədə danışaraq qeyd etdi ki, tarixi faktlar sübut edir ki, Akdamar abidəsi xristianlığı qəbul etmiş qıpçaq türklərinə aiddir. Haliyədə bu regionun mədəni və tarixi həyatı ilə bağlı yanlış məlumatlar vardı. Bu mədəni-tarixi uyğunsuzluqların arxasında siyasi niyyətlərin dayandığı aydın şəkildə görünür. Mən Türkiyə ərazisində baş vermiş iki hadisəyə toxunmaq istəyirəm. Onlardan biri Roma imperiyasına məxsus olan və Trabzon şəhərində yerləşən Sumela kilsəsi, ikincisi isə Azərbaycan tarixi üçün çox əhəmiyyətli olan Akdamar kilsəsidir.

"Ermənilər bu kilsəni inşa edən və quranlardandırmı?" sualına Həsən Paşalı belə cavab verdi ki, ermənilər iddia edirlər ki, Van gölündəki Akdamar adasında yerləşən kilsə ermənilərə aiddir. Əslində, bununla ermənilər bir daha dünyaya sübut etmək istəyirlər ki, guya, doğrudan da, qədimdə Türkiyənin şərqində erməni əyaləti olub, ermənilər həmin ərazilərin aborigenləridir. Hətta onlar Osmanlı imperiyasından əvvəl, İslamdan çox-çox əvvəl orada xristian məbədi inşa ediblər və guya bu məbəd onların qədim tarixi, mədəni və dini abidəsidir. Bu, doğru deyil. Ermənilərin bu əraziyə gəlişi həmin kilsənin inşasından çox-çox sonrakı illərə təsadüf edir. Tarixi faktlara söykənsək, bu kilsənin birbaşa Azərbaycan xalqının mədəni-tarixi, dini-ideoloji irsi ilə bağlı olduğunu və kilsənin tikilməsinin, orada dini mərasimlərin keçirilməsinin Cənubi Qafqazda və Şərqi Anadoluda yaşayan qıpçaq türkləri ilə bağlı olduğunu söyləyə bilərik. Həmçinin bu kilsənin Qafqaz albanlarının keçmişi ilə əlaqəli olması barədə tarixi faktlar da mövcuddur.

Məşhur Azərbaycan yazıçısı Yusif Vəzir Çəmənzəminli qeyd edirdi ki, "söz tarixin yuvası, söz tarixin açarıdır". Maraqlıdır ki, "Akdamar" sözünün erməni dilində heç bir mənası yoxdur. Ərəb dilində də hansısa məna ifadə etmir. Bəzi iddialara görə, "Akdamar" sözünün ərəbcə mənası "qabartı" deməkdir və bu məna kilsənin dəqiq adı ilə əlaqəli deyil. Əslində, "ak" sözü türk dilində "işıq" deməkdir. Qədim zamanlarda türk dilində "ak" sözü günümüzdə istifadə olunan "ziyalı" sözünü əvəz etmək üçün də istifadə olunmuşdur. Eyni zamanda "işıq" sözü ərəb dilindən gəlir və arxaik türk dilində mənası "ak" dır. "Damar" isə yol deməkdir və qədim türklərdə yol mənasını ifadə edirdi. Əgər biz "Akdamar" sözünü tərcümə etsək, bugünkü "Samanyolu", yəni "süd yolu" mənasını verəcəkdir. Bu isə qədim türklərin Allaha inamı ilə bağlıdır.

Bildiyiniz kimi, 315-ci ildə Qafqaz Albaniyasında kral Vaçeqan rəsmən xristianlığı qəbul edib. Onun qardaşı və ya oğlu olan, özünü İsa Peyğəmbərin həvarisi sayan Qriqoris də alban mənşəli idi. Həmin vaxt İslam dini yaranmamışdı, xristianlıq yayılmağa başlamışdı və xristianlıq təkallahlı din olduğu üçün türklərin təkallahlı dini ilə uyğun gəlirdi. Bu səbəbdən türklər xristian dinini qəbul etdilər. Qriqoris Albaniyanın digər bölgələrində dini yayarkən Azərbaycanın indiki Beyləqan rayonunda öldürülüb. Bu gün Beyləqanda olan və Peyğəmbər qəbri olaraq tanınan Çərçis Peyğəmbərin qəbrinin Qriqorisə aid olduğu deyilir. Yeri gəlmişkən, qədim dövrdə, miladdan əvvəl III-IV əsrlərdə Qars, Van, Sarıqamış və digər ərazilərdə "karkaslar" adlı türklər yaşamışdır. Bugünkü Qars şəhərinin də karkaslar tərəfindən salındığı ehtimal edilir. Qədim Ani şəhəri də karkaslara aid xüsusi məhəllə olub. Ona görə də bu dövrdə Qafqazda yaşayan albanlar və qıpçaq türkləri bu ərazilərdə də yaşamış və onlar özləri üçün burada kilsə inşa etmişdir. Biz xristian qıpçaqları və oğuz tayfalarının ***"Kitabi-Dədə Qorqud"*** dastanında qarşıdurmaları barədə bəzi faktlara da rast gəlirik. Dastanda xristian türklərinin ümumiləşmiş xarakteri Qıpçaq Məlikdir. Qıpçaq Məlik xan Qazanın evini yağmalayır. Bu, həmin dövrdür ki, artıq türklər arasında dini kimlik etnik kimlikdən önə çıxmağa başlayır. Bu səbəbdən də xristian qıpçaqları özlərini başqa qəbilə hesab edirlər.

Bundan əlavə, IX əsrdə Babəkin rəhbərlik etdiyi Xürrəmilər hərəkatının məğlubiyyətindən sonra İslam dini Azərbaycanda da yayıldı. Bu ərazilərdə yaşayan xristian qıpçaqları Şərqi Anadoluya hərəkət etməyə başladı və onlar orada öz dini mərkəzlərini yaradaraq bu yer ətrafında məskunlaşmağa başladılar. Tarixi faktlara görə, bu kilsə 915-921-ci ildə inşa edilmişdir. Kilsə mərkəzi qübbəli, dörd yaraqlı yonca formalı xaç planında olub və qırmızı daşlarla inşa edilmişdir. Abidənin çöl hissəsində üzərində daşla yonulmuş təsvirlərdə İncil və Tövratdan dini mövzularla bərabər, dünyəvi məsələlər, saray həyatı, ov səhnələri, insan və heyvan fiqurları təsvir edilmişdir. Maraqlıdır ki, bu qabartmalarda Orta Asiya türklərinin sənətkarlıq izlərini də görmək mümkündür. Akdamar kilsəsinin divarındakı rəsmlər kilsə ilə bağlı daha çox məlumat verir. Siz döyüşçünün üzünə diqqətlə baxsanız onun üzü qıpçaq türklərinin üzünə oxşayır. Atın yəhərindəki ay şəkli bu abidənin türklərə aid olduğunun bir sübutudur. Və bütün tarixçilər qəbul edir ki, at belinə oturub 180 dərəcə dönərək ox atmaq yalnız türklərə aid bir hünərdir.

Biz "Əsli və Kərəm" dastanında da xristian türklərinin izlərini tapa bilərik. Dastanda təqdim olunan keşiş heç də Gəncədən olan erməni katoliki, din xadimi deyildir. O, xristian qıpçaq camaatının fəaliyyətinə məsuliyyət daşıyan və ayrıca onlardan vergi toplayan Gəncə bəylərbəyinin təmsilçisi idi. Bu qara keşiş xristian qıpçaq türklərindəndir və o, Ərzurum və Vana gedərkən ermənilərlə yox, eyni dinə ibadət edən qıpçaq qardaşları, dindaşları ilə görüşmüşdür. Bu onu göstərir ki, Akdamar kilsəsi qıpçaq türklərinin dini mərkəzidir.

Çar Rusiyasının Azərbaycanı işğal etməsindən sonra imperiyanın İrandakı səfiri Qriboyedovun rəhbərliyi ilə ermənilərin Azərbaycan torpaqlarına köçürülməsi başlandı. Bu mərhələdə ermənilərin bir hissəsi Azərbaycan, bir hissəsi isə Şərqi Anadoluda məskunlaşdırıldı. Lakin Şərqi Anadolu Kilikiya demək deyil. İnformasiya mənbələrində bildirilir ki, Bizans dövründə ermənilər Kilikiyaya köçürülmüşdür, lakin onlar bugünkü ermənilər deyil. Onlar Balkanlardan Roma imperiyasına qoşulan bir qisim ermənilərin əcdadı hesab olunan protohaylardır. Neron Şərqi Bizansda məğlub olub Romaya qayıtdıqdan sonra həmin ermənilər bu əraziləri tərk edirlər. Ermənilər Kilikiyada yalnız 30-40 il yaşamışlar. Bundan sonra onlar Kilikiyada yaşamamışlar. Sonrakı dövrdə Hay tayfaları Osmanlı imperiyası və Ərəb dünyasına məxsus ərazilərdə məskunlaşmışlar. Bu Akdamar kilsəsinin Azərbaycan mədəniyyəti və qıpçaq türklərinə aid olduğunu sübut edir. Təəssüf ki, Akdamar kilsəsində dini mərasimlərə bu gün icazə verilir. Bu kilsəni dini mərasimlərə açıq tutmaq və ermənilərin bu kilsəyə ziyarəti Türkiyənin xeyrinə deyil. Bütün bunlar Türkiyəyə qarşı ermənilərin ərazi iddialarının möhkəmlənməsinə xidmət edir. Tarixə diqqətlə baxsaq, biz bir çox məqamlara şahid olacağıq. Trabzonda Sumela kilsəsinin yunanlara açılmasından sonra Akdamar kilsəsi erməni icması üçün açıldı.

*Yuxarıda qeyd olunan detallar üzərində Azərbaycan və türk tarixçiləri işi davam etdirməlidir. Akdamar kilsəsinin erməni irsi ilə heç bir əlaqəsi yoxdur və sənədlər sübut edir ki, Akdamar kilsəsi Qıpçaq türklərinə aiddir. Bu gün Eçmiədzində erməni hərfləri və Qıpçaq ləhcəsi ilə yazılmış dinitarixi sənədlər vardır. Bu faktlara əsasən, Anadoluda olan xristian kilsələri erməni mədəniyyətinə aid deyildir. Bu gün Azərbaycanda, eyni zamanda Şərqi Anadoluda olan kilsələrin ermənilərlə heç bir əlaqəsi yoxdur.*

**Peter TASE**
**30.06.2015**
***Amerika Birləşmiş Ştatlarının foreignpolicynews.org informasiya portalı***

# İlk Avropa Oyunlarının bürünc mükafatçısı olan boksçumuz Naxçıvanda böyük coşqu ilə qarşılandı

*İlk dəfə olaraq Azərbaycanda təşkil olunan birinci Avropa Oyunlarına yekun vurulub. "Bakı-2015" ilk Avropa Oyunları istər təşkilatçılıq, istərsə də idmançılarımızın uğurlu çıxışı baxımından bir daha sübut etdi ki, Azərbaycan artıq dünyada bir idman ölkəsi kimi sözünü deməkdədir.*





İlk Avropa Oyunları eyni zamanda Naxçıvan Muxtar Respublikası üçün də yaddaqalan oldu. Belə ki, bu mötəbər idman tədbirində çıxış edən boksçumuz Tayfur Əliyev bürünc medal qazanmaqla adını tarixə yazdırdı. Ötən gün Tayfur Naxçıvana qayıdıb. Avropa Oyunlarının bürünc mükafatçısı Naxçıvan Beynəlxalq Hava Limanında idman ictimaiyyəti, kütləvi informasiya vasitələri nümayəndələri və azarkeşlər tərəfindən böyük coşqu ilə qarşılanıb.

Sonra Tayfur Əliyev Naxçıvan Üzgüçülük Mərkəzində kütləvi informasiya vasitələri nümayəndələrinin suallarını cavablandırıb. Mətbuat konfransından öncə çıxış edən Naxçıvan Muxtar Respublikası Gənclər və İdman naziri Azad Cabbarov boksçumuzu qazandığı böyük nailiyyətə görə təbrik edib və bu uğuru son illər muxtar respublikada idmana göstərilən qayğının nəticəsi kimi dəyərləndirib. Gənclər və İdman naziri "Bakı-2015" ilk Avropa Oyunlarında bürünc medal qazanmış boksçumuza hədiyyə təqdim edib.

Media nümayəndələrinin suallarını cavablandıran Tayfur Əliyev ilk olaraq Avropa Oyunları zamanı ona dəstək olan hər kəsə minnətdarlığını bildirib: "Öncə onu qeyd edim ki, birinci Avropa Oyunlarında çıxış etdiyim üçün çox qürurluyam. Çünki bu yarış tarixdə ilk dəfə keçirilir. İllər ötəcək, amma ilk Avropa Oyunları yadda qalacaq, fərqli hislər olacaq. Özümü şanslı sayıram. Çünki Avropada az idmançı mən yaşadığım hisləri keçirdi. Döyüşlərimə gəldikdə isə çıxışımdan çox da razı qalmadım. Mənim üçün Avropa Oyunlarında qazandığım təcrübə daha önəmlidir. İlk dəfə idi ki, böyüklər arasında, özü də belə mötəbər yarışda iştirak edirdim. Həyəcanım çox idi. Bundan sonrakı yarışlarda – dünya çempionatı və Olimpiya Oyunlarında daha yaxşı döyüşəcəm. İstər yarış həyəcanı, istərsə də döyüş taktikası baxımından burada qazandığım təcrübə mənə kömək edəcək".

Qeyd edək ki, Tayfur Əliyev "Bakı-2015" ilk Avropa Oyunlarında boks yığmamızın heyətində 56 kiloqram çəki dərəcəsində mübarizə aparıb. O, 1/8 final mərhələsində Rumıniya boksçusu Nikolae Andreiananı, 1/4 finalda isə Danimarka idmançısı Frederik Yanseni məğlub etsə də, yarımfinalda Rusiya təmsilçisi Baxtovar Nazirova məğlub olaraq bürünc mükafat qazanıb.

**Ceyhun MƏMMƏDOV**

## Naxçıvan Muxtar Respublikası üzrə 6 iyul 2015-ci il tarixə taxıl biçininin gedişinə dair operativ məlumat

| S/№ | Rayonlar | Biçiləcək taxıl sahəsi (hektar) Cəmi | Ondan Buğda | Ondan Arpa | Biçilən taxıl sahəsi (hektar) Cəmi | Ondan Buğda | Ondan Arpa | Məhsul istehsalı (ton) Cəmi | Ondan Buğda | Ondan Arpa | Məhsuldarlıq (sentner) Cəmi | Ondan Buğda | Ondan Arpa |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| 1. | Şərur | 9187 | 7315 | 1872 | 4920 | 3200 | 1720 | 16860 | 11190 | 5670 | 34,3 | 35,0 | 33,0 |
| 2. | Babək | 10476 | 7869 | 2607 | 5696 | 3368 | 2328 | 15178 | 9080 | 6098 | 26,6 | 27,0 | 26,2 |
| 3. | Culfa | 4982 | 3957 | 1025 | 1910 | 1120 | 790 | 5500 | 3150 | 2350 | 28,8 | 28,1 | 29,7 |
| 4. | Ordubad | 2150 | 1308 | 842 | 1776 | 961 | 815 | 4770 | 2710 | 2060 | 26,9 | 28,2 | 25,3 |
| 5. | Şahbuz | 1344 | 1022 | 322 | 17 | 5 | 12 | 48 | 14 | 34 | 28,2 | 28,0 | 28,3 |
| 6. | Kəngərli | 4735 | 3104 | 1631 | 3218 | 1726 | 1492 | 8584 | 4784 | 3800 | 26,7 | 27,7 | 25,5 |
| 7. | Sədərək | 2132 | 1147 | 985 | 1131 | 81 | 1050 | 3520 | 300 | 3220 | 31,1 | 37,0 | 30,7 |
| 8. | Naxçıvan şəhəri | 1231 | 1024 | 207 | 232 | 152 | 80 | 615 | 415 | 200 | 26,5 | 27,3 | 25,0 |
| | **Naxçıvan Muxtar Respublikası üzrə cəmi:** | **36237** | **26746** | **9491** | **18900** | **10613** | **8287** | **55075** | **31643** | **23432** | **29,1** | **29,8** | **28,3** |

### İtmişdir

Naxçıvan şəhəri, Xətai məhəlləsi, döngə 1-də yaşayan Novruzov Asim Asif oğlunun adına Naxçıvan Muxtar Respublikası Daşınmaz Əmlakın Dövlət Reyestri Xidməti tərəfindən 22 sentyabr 2014-cü ildə verilmiş 0038244 seriya nömrəli çıxarış itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: TURAL SƏFƏROV

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi, 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Səbuhi Həsənov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 4020. Sifariş № 522